


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 151 (23.563)

10 sentyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərdəkan-Zuğulba avtomobil yolunda yerüstü piyada keçidinin açılışında iştirak edib. Bu yerüstü piyada keçidi tikilərkən ətrafdakı yaşayış massivi, məktəbin mövcudluğu, insanların daha çox yolun bu hissəsindən istifadəsi və digər amillər nəzərə alınıb. Keçid Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramı çərçivəsində inşa edilib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov keçidin texniki-iqtisadi göstəriciləri barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, keçidin ümumi uzunluğu panduslarla birlikdə 180 metrdir. Üç dayaq üzərində torşəkilli metal konstruksiyadan quraşdırılmış keçidin orta hissəsinin uzunluğu 52 metr, eni 4,5 metrdir. Piyada keçidi bir-biri ilə 57 dərəcə bucaq altında kəsişən 39 ədəd polad halqadan yığılıb. Rahat hərəkət üçün keçiddə beynəlxalq standartlar nəzərə alınmaqla panduslar quraşdırılıb. Pandusların mailiyi 8 dərəcəyə bərabərdir.



İcmal

## Müdrik ideyalara əsaslanan qətiyyət və əzmkarlıq, sarsılmaz siyasi iradə, insan amilinə verilən dəyər daha firavan gələcəyə böyük inam yaradır

### Ötən ayın ümumi mənzərəsi də bunu bir daha təsdiq edir



***Ümummilli liderimiz Heydər Əliyevin həmişəyaşar müdrik siyasəti, Azərbaycan Prezidenti cənab İlham Əliyevin varislik prinsiplərinə əsaslanaraq ulu öndərin siyasi ideyalarını qətiyyətlə və yaradıcı şəkildə gerçəkləşdirməsi ölkəmizin inkişaf etmiş dünya dövlətləri sırasında bərqərar olması ilə nəticələnməkdədir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim diyarımızda blokada şəraitində möhtəşəm inkişaf strategiyasının həyata keçirilməsi, sosial-iqtisadi, elmi-mədəni tərəqqiyə nail olunması isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Heydər Əliyev ideyalarına sarsılmaz sədaqətinin bəhrələri, siyasi sadiqlik əzminin təntənəsidir.***

Muxtar respublikada əldə edilən çoxcəhətli tarixi nailiyyətlərin əsasında köklü iqtisadi islahatlar, düşünülmüş idarəetmə prinsipləri, maliyyə resurslarından düzgün və qənaətlə istifadə, büdcənin dəqiq balanslaşdırılması durur. Ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə muxtar respublikada ümumi inkişafın əsas göstəriciləri olan əhali rifahı, ərzaq, enerji və müdafiə təhlükəsizliyi tam təmin olunmuşdur. İstilik sistemlərinin yenilənməsi, yaşayış məntəqələrində aparılan quruculuq işləri, müasir təhsil, səhiyyə və nəqliyyat infrastrukturunun yaradılması, çəkilən yeni yollar və mövcud şərait payız-qış mövsümündə müşahidə olunan çətinlikləri aradan qaldırmışdır. Muxtar respublika rəhbərinin çoxillik gərgin və düşünülmüş siyasi fəaliyyəti nəticəsində ötən əsrin sonlarında ağır blokada şəraitində, xüsusilə də payız-qış aylarında yaşanan ciddi problemlər artıq tarixə gömülmüşdür. Enerji təhlükəsizliyi ilə bağlı görülən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada yaradılmış elektrik stansiyaları elektrik enerjisinə olan tələbatı tam ödəməklə yanaşı, elektrik enerjisinin ixracına da imkanlar yaratmışdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, əvvəlki illərdə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən stansiya fəaliyyət göstərirdisə, 2019-cu ilin sonuna bu göstərici 9-a çatdırılmışdır. Ümumi stansiyaların 7-də alternativ və bərpa olunan enerji istehsal edilir ki, bu da iqtisadi cəhətdən daha rentabelli olmaqla yanaşı, ətraf mühitin mühafizəsində də mühüm rol oynayır. Muxtar respublikada enerji təhlükəsizliyi məsələlərinin həlli ilə yanaşı, təbii qaz təchizatının fasiləsiz həyata keçirilməsi də diqqətdə saxlanılır. Belə ki, 1 iyul 2020-ci il tarixə muxtar respublikada 87 min 739 əhali abonenti təbii qazla təmin olunmuşdur.

### *Yaradılan şərait, göstərilən qayğı, ilin bütün dövrlərində layiqincə yaşamağa və fəaliyyət göstərməyə zəmanət verir*

Əhalinin sosial rifah halı, mövcud infrastrukturun yenilənməsi, iqtisadi potensialın gücləndirilməsi məsələləri ötən ay da diqqətdə saxlanılmışdır. Avqustun 12-də Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirəni açaraq demişdir ki, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq məsələləri diqqətdə saxlanılır, müşavirə keçirilərək aid qurumlara müvafiq tapşırıqlar verilir. Müəssisə və təşkilatların qışa hazırlığı, müşahidə olunan problemlərin aradan qaldırılması mövsümü uğurla başa vurmağa, əhalinin qış aylarında rahatlığının təmin olunmasına imkanlar yaradır.

Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada məskunlaşmanın ilbəil artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə və təbii qaza olan tələbatı da ilbəil artırır. Bu gün muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələri ümumi tələbatın 70 faizindən çoxunu ödəyir. Ordubad və Tivi Su Elektrik stansiyaları istifadəyə verildikdən sonra isə enerji tələbatı tamamilə bərpa olunan enerji mənbələri hesabına ödəniləcəkdir. Qaza artan tələbat isə İqdır-Naxçıvan qaz kəmərinin tikintisi başa çatandan sonra təmin ediləcəkdir. Hər il payız-qış mövsümünə hazırlıqla bağlı müşavirənin keçirilməsi, xüsusilə qabaqlayıcı tədbirlərin görülməsi də əhali rahatlığının təmin olunmasına xidmət edir. Ona görə də 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq məsələsi diqqətdə saxlanılmalı, aid strukturlar tərəfindən zəruri tədbirlər görülməlidir”.***

Ali Məclisin Sədri əhalinin payız-qış mövsümündə fasiləsiz elektrik enerjisi ilə təminatı, təbii qazın kəsintisiz nəqli, mövsümi hazırlıqla bağlı zəruri ehtiyat yaradılması, bütün yaşayış məntəqələrində hazırlıq işlərinin görülməsi, içməli su və kanalizasiya sistemlərinin qışa hazırlıq vəziyyətinin yoxlanılması, payız suvarma mövsümü bitdikdən sonra hidrotexniki qurğuların növbəti ilə hazırlanması, su bəndlərinin vaxtında bağlanması və anbarlarda su ehtiyatının yaradılması, qızdırılmasında maye qaz və neft məhsullarından istifadə olunan müəssisə və təşkilatların fəaliyyətinin qış mövsümündə fasiləsizliyini təmin etmək məqsədilə yanacaq tədarükünün görülməsi ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar vermişdir. Vurğulanmışdır ki, tədris prosesi başlandığı dövrdən etibarən ümumtəhsil məktəblərində dərslərin davamlılığına ciddi nəzarət olunmalı, əhalinin dərman preparatları və tibbi avadanlıqlarla təminatı davam etdirilməlidir. Səhiyyə maarifinə diqqət artırılmalı, gigiyena və epidemiologiya mərkəzləri tərəfindən qrafikə uyğun dezinfeksiya işləri aparılmalıdır. Muxtar respublikanın mədəniyyət və idman müəssisələrinin davamlı fəaliyyəti diqqətdə saxlanılmalı, inzibati binalar, sosial obyektlər və məktəb binalarında ehtiyac olan təmir işləri noyabrın 1-nə qədər başa çatdırılmalıdır.

Müşavirədə tapşırılmışdır ki, sərnişindaşıma xidmətinin davamlı həyata keçirilməsi, avtomobil yollarında tələb olunan təmir-tikinti işlərinin aparılması, qış aylarında uçuşların təhlükəsizliyi ilə bağlı işlər nəzarətdə saxlanılmalı, dəmir yolu nəqliyyatında vaqon və lokomotivlər mövsümə uyğun saz vəziyyətə gətirilməli, standartın tələblərinə cavab verməyən və sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz məişət cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısı alınmalıdır.

Muxtar respublikada dövlət ehtiyatlarının yaradılması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verən Ali Məclisin Sədri demişdir ki, İqtisadiyyat Nazirliyi bazarın vəziyyətini təhlil etməli, mövsümə uyğun əsas ərzaq məhsullarına olan tələbatı müəyyənləşdirməli, kənd təsərrüfatı məhsulları soyuducu anbarlara tədarük olunmalı və ehtiyat yaradılmalıdır. Bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı müvafiq tədbirlər görülməlidir. Sosial könüllülüklə bağlı layihələr və hərbi hissələr üçün yun corabların toxunması işi davam etdirilməlidir. Yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət artırılmalı, mal-material ehtiyatı yaradılmalı, cəzaçəkmə müəssisələri istiliklə təmin olunmalı, məhkumların isti geyim və ərzaqla təchizatı diqqətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri çıxışında muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan ehtiyatların, eləcə də sərhəd zonalarındakı hərbi hissələrin yanacaq və ərzaq təchizatının vaxtında başa çatdırılması kimi zəruri məsələlərə də toxunmuşdur. Tapşırılmışdır ki, Əlahiddə Ümumqoşun Ordu Naxçıvan Qarnizonu üzrə qışa hazırlığın yekun vəziyyəti barədə Ali Məclisə məlumat versin. Qeyd olunmuşdur ki, muxtar respublikada aparılan məqsədyönlü ekoloji siyasətin davamı olaraq müvafiq tədbirlər həyata keçirilməli, heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatlarının qışlamaya hazırlanması diqqətdə saxlanılmalı, enerjidaşıyıcılarından istifadə zamanı limitə və borc qalığının yaranmamasına nəzarət edilməli, payız-qış mövsümünə hazırlıqla bağlı tələb olunan mal-materialın alınması üçün lazım olan vəsait ayrılmalıdır.

Ali Məclisin Sədri demişdir: ***“Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti istilik sistemi olmayan müəssisələr üçün tələb olunan yanacağın və digər mal-materialın bölgüsünü təsdiq etməli, istilik sistemlərindən istifadə limiti müəyyənləşdirilməli, payız-qış mövsümünə hazırlıqla bağlı aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarında müzakirələr aparılmalı, görülən işlər barədə cari ilin oktyabr ayının sonunadək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı payız-qış mövsümünə hazırlıqla bağlı verilən tapşırıqların icrasını diqqətdə saxlamalı, mövsüm ərzində bu məsələ ilə bağlı daxil olan müraciətlər, eləcə də ərizə və şikayətlər dərhal araşdırılmalı və aidiyyəti üzrə məlumat verilməli, problemlər qısa müddətdə aradan qaldırılmalıdır ”.***

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

### *Mühüm geostrateji məkanda inkişaf və sabitliyin başlıca amillərindən biri kimi sərhədlərin etibarlı qorunması da diqqətdə saxlanılır*

Sosial-iqtisadi inkişaf, yaradılan müasir infrastruktur, ərzaq, enerji ehtiyatları növbəti payız-qış mövsümünü də heç bir çətinlik yaranmadan, problemsiz başa vuracağımıza təminat verir. Muxtar respublikada davamlı inkişaf və sabitliyə nail olunmasında

Ardı 2-ci səhifədə

isə, heç şübhəsiz ki, mürəkkəb geostrateji ərazidə yerləşən, üç dövlətlə həmsərhəd olan bir məkanın sərhədlərinin etibarlı qorunması da başlıca amillərdəndir. Qeyd etmək yerinə düşər ki, ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi ordu quruculuğu tədbirləri sırasında sərhəd qoşunlarının formalaşması və inkişafı mühüm yer tutur. 1992-ci il avqustun 22-də ulu öndərin rəhbərliyi ilə Naxçıvandakı sərhəd dəstəsində müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmış və bununla da ilk milli sərhəd dəstəsinin təməli qoyulmuşdur. 1992-ci il sentyabrın 19-da isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi "Naxçıvan Muxtar Respublikasının müdafiəsi və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul etmiş, bu qərardan 10 gün sonra – sentyabrın 29-da Naxçıvandakı 41-ci sərhəd dəstəsi ləğv olunmuş və onun funksiyaları, bütün hərbi və təsərrüfat əmlakı 1-ci sərhəd dəstəsinə təhvil verilmişdir. Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının 1-ci dəstəsi yaradılmış, muxtar respublikada son 30 ilə yaxın bir tarixi mərhələdə ordu quruculuğu sahəsində görülən işlər müdafiə təhlükəsizliyini tam təmin etmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvandakı ordu, birləşmə və hissələri mühüm təşkilatlanma və inkişaf yolu keçmiş, xidmət günün tələbləri səviyyəsində qurulmuşdur.

Azərbaycan Respublikasının muxtar respublikadakı 234 kilometrlik sərhəd ərazisinin etibarlı mühafizəsinə xidmət edən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında da maddi-texniki baza xeyli gücləndirilmiş, sərhəd xidmətində geniş quruculuq işləri aparılmış, infrastruktur yenilənmiş, şəxsi heyətin peşəkarlığı artırılmışdır. Avqustun 22-də – "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümündə 8-ci Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Bildirilmişdir ki, zastavada tikinti işlərinə 2019-cu ildə başlanılmışdır. Kompleksə qərargah, sərhədçi ailələri üçün yaşayış binaları, eləcə də digər xidməti və yardımçı binalar daxildir. İkimərtəbəli qərargah binasında 48 yerlik yataqxana, 32 yerlik yeməkxana, anbar və iş otaqları yerləşir. Yaşayış binasında hər biri 2 otaqdan ibarət 8 mənzil vardır. Mənzillərdə müasir yaşayış üçün hər cür kommunal şərait yaradılmışdır.

1-ci Sərhəd Komendantlığının sərhəd zastavaları tam şəkildə videonəzarət sistemi ilə təchiz olunmuş, HD görüntü keyfiyyətinə malik 8 idarəolunan və 21 sabit kamera quraşdırılmışdır. 11 sabit və 2 idarəolunan kamera 8-ci Sərhəd Zastavasının xidmət sahəsini əhatə edir. Çəkilən videokadrlar uzun müddət sistemin yaddaşında saxlanılır.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşmüş, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir ki, zastava üçün istifadəyə verilən əsgəri-məişət kompleksində və yeni yaşayış binasında hərtərəfli şərait vardır. Yeni yaşayış kompleksinin istifadəyə verilməsi ailələrin rahatlığının təmin olunması ilə yanaşı, eyni zamanda xidmətin də uğurlu təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərhədçiləri salamlamış, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü və 8-ci Sərhəd Zastavasının yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətini, sərhədçi ailələrini təbrik etmiş, sərhəd zastavasının yeni kompleksinin qurulmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: ***"Ümummilli liderimizin ali hakimiyyətə qayıdışından sonra Azərbaycan Silahlı Qüvvələri tam təşkilatlanma və inkişaf yolu keçmiş, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında nümunəvi və peşəkar sərhəd qüvvələri formalaşmışdır. Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanları ilə 2004-cü il yanvarın 14-də Naxçıvan Sərhəd Dəstəsinin əsasında "Naxçıvan" Sərhəd Diviziyası, 2015-ci il avqustun 17-də isə "Naxçıvan" Sərhəd Diviziyasının bazasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası yaradılmış, vəzifə və səlahiyyətlər artırılmışdır".***

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuşdur. Bu illər ərzində "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının inkişafı təkcə maddi-texniki bazanın gücləndirilməsi ilə məhdudlaşmamış, diviziyanın təşkilati cəhətdən formalaşması da diqqətdə saxlanılmışdır. Qərargahın, sərhəd komendantlıqlarının və zastavaların, çevik hərəkət taborunun ştat sayı xidmət funksiyalarına uyğun artırılmış, döyüş hazırlığı bölməsi, təlim-tədris mərkəzi, zenit-artilleriya və mühəndis-istehkam bölükləri, 2-ci Sərhəd Komendantlığı və onun tərkibində sahil mühafizə qrupu yaradılmış, xidmət günün tələbləri səviyyəsində qurulmuşdur.

Ali Məclisin Sədri bildirmişdir ki, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti bundan sonra da hərbi intizama ciddi əməl etməli, sərhəd nəzarəti və xidməti fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, hərbi qulluqçuların peşəkarlığı artırılmalıdır.

Ali Məclisin Sədri xidməti nümunəvi təşkil etdiklərinə görə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə təşəkkürünü bildirmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun".***

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli Sərəncamına əsasən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunan zabitlərinə Azərbaycan Respublikasının medallarını təqdim etmişdir.

Ali Məclisin Sədri şəxsi heyətlə xatirə şəkli çəkdirmişdir.

8-ci Sərhəd Zastavasında nəzarət-buraxılış məntəqəsi, sıra meydanı, idman şəhərciyi, təlim meydançası, sərhədçi ailələri və şəxsi heyət üçün istirahət və əyləncə parkı, nəzarət-buraxılış məntəqəsi yaradılmış, müasir şəraitlə təmin olunmuş, ətrafda abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

Həmin gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına "NİVA" markalı iki xidməti avtomobil təqdim olunmuşdur.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilmişdir.

### *Aqrar məkan kimi şöhrətlənən diyarımızda görülən çoxsaylı tədbirlər torpağa, zəhmətə, yurda bağlılıq hissini daha da yüksəldir*

Sabitliyin, asayişin bərqərar edildiyi, sərhədlərinin ayıq-sayıq mühafizə edildiyi, ərazilərinin etibarlı müdafiə olunduğu muxtar respublikada inkişaf dinamikası ən müxtəlif sosial-iqtisadi sahələri əhatə etməkdədir. Xüsusilə aqrar məkan kimi şöhrətlənən muxtar respublikada bu sahənin inkişafında meliorasiya və su təsərrüfatı sisteminin müasirləşdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunmasında su ehtiyatlarından səmərəli istifadə də strateji əhəmiyyətli bir məsələ kimi diqqətdə saxlanılır. Mütərəqqi suvarma şəbəkələri, nasos stansiyaları qurulur, yeni texnika və avadanlıqlar istifadəyə verilir. Yaradılan şərait torpaq və su ehtiyatlarından səmərəli istifadə ilə yanaşı, əkinçiliyin inkişafına və bol məhsul istehsalına, əhalinin məşğulluğunun və rifahının yaxşılaşmasına xidmət edir. Muxtar respublikamızda aqrar sektorun inkişafında, meliorasiya və irriqasiya sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsində xarici iqtisadi əməkdaşlıq imkanlarından da geniş istifadə olunur. Azərbaycan-Çin əlaqələrinin yüksək səviyyədə inkişafının nəticəsi olaraq Çin Xalq Respublikası tərəfindən 2017-ci ildə "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə kənd təsərrüfatı texnika və avadanlıqları verilmişdir. Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış Texniki-İqtisadi Əməkdaşlıq haqqında Sazişə əsasən Çin Xalq Respublikasından 17 adda 67 texnika və texnoloji avadanlıq gətirilmiş, avqustun 28-də yeni maşın, texnika və avadanlıqlar Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə təqdim olunmuşdur. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edərək kollektivi təbrik etmiş və demişdir: ***"Təqdim olunan avadanlıqlar muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açacaqdır. Çünki "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş avadanlıqlarla həm 2 min hektarlıq toxumçuluq təsərrüfatında işlər həyata keçirilir, həm də digər təsərrüfatlara köməklik göstərilir. Bu gün təqdim olunan avadanlıqlar isə muxtar respublikada meliorasiya və irriqasiya sahəsində istifadə olunacaqdır. Hazırda muxtar respublikada 62 min hektara yaxın ərazidə əkin aparılır. Son 20 il ərzində əkin sahələri 22 min hektara yaxın artırılmışdır. Qarşıda duran əsas vəzifə torpaqların su təminatını yaxşılaşdırmaq, aqrotexniki qaydada əkinlər aparmaq və mütərəqqi suvarma şəbəkələri qurmaqdır. Qrant layihəsi üzrə gətirilən müasir texnikalar kənd təsərrüfatında meliorasiya tədbirlərinin tam və keyfiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir. Ona görə də gətirilən texnikalardan səmərəli istifadə olunmalı, onların istismar qaydaları düzgün öyrənilməli və vaxtında texniki baxış keçirilməlidir".***

Qeyd edək ki, Çin istehsalı olan 5 ekskavator, 8 buldozer, 13 dəst qaynaq aparatı, 8 çalovlu yükləyici, qoşqulu və texniki yardım avtomobilləri, 3 yeraltı su və 8 susızma detektoru, 2 hava kompressoru, 6 su sərfiyyatını ölçən cihaz, 1 mobil yükləyici və digər avadanlıqlar yüksək iş əmsalına malikdir. Yeni texnika və texnoloji avadanlıqlar arx və kanalların qazılması, təmizlənməsi, ərazilərin hamarlanması, maşın-texnika və avtonəqliyyat vasitələrinə yerində texniki xidmət göstərilməsi, yeraltı suların və boru xətlərində su sızmalarının təyin olunması, su sərfiyyatının ölçülməsi kimi işlərin həyata keçirilməsində istifadə olunacaqdır.

Texnikalara baxışdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri demişdir: ***"Müasir texnikalar işin keyfiyyətini xeyli artıracaqdır. Çünki texnika işin yarısı deməkdir. Muxtar respublikada bundan sonra da əhali artımına uyğun olaraq əkin dövriyyəsinə yeni torpaqlar qatılmalı, eyni zamanda ixrac imkanları genişləndirilməlidir. Torpaqların əkin dövriyyəsinə qatılmasında isə texnika və texnoloji avadanlıqların rolu böyükdür. Yeni texnikalar iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məhsul bolluğunun yaradılmasına xidmət edəcəkdir".***

Ali Məclisin Sədri yeni texnikalardan səmərəli istifadə ilə bağlı müvafiq tapşırıq və tövsiyələr vermişdir.

Avqust ayı muxtar respublikanın siyasi-ictimai həyatında müstəqil dövlətçilik prinsiplərinin həyata keçirilməsinə, gələcək çoxşaxəli inkişaf strategiyasının müəyyənləşdirilməsinə xidmət edən dövlət sənədlərinin imzalanması ilə də yaddaqalan olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması haqqında" 2020-ci il 4 avqust tarixli Sərəncamı muxtar respublikada aparılan uğurlu elm, təhsil siyasətinin davamı olaraq kimya və biologiya fənləri üzrə şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsi, inkişafı, həmçinin gələcək ixtisas seçiminin istiqamətləndirilməsi məqsədilə yenitipli təhsil müəssisəsinin yaradılması zərurətinin həlli baxımından mühüm əhəmiyyət kəsb edir. Ali Məclis Sədrinin "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 24 avqust tarixli Fərmanına əsasən Cəmiyyətin adı dəyişdirilərək "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti adlandırılmış, onun hüquqi şəxs kimi səlahiyyətləri müəyyənləşdirilmişdir. Bunlar elm və təhsilin yeni və ixtisasyönümlü təhsil müəssisələrinin yaradılması, aqrar sahənin isə kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları ilə təminat, aqrotexniki xidmətlərin mütəşəkkil təşkili yolu ilə inkişafına xidmət edəcək mühüm dövlət sənədləridir.

*Bu gün sosial-iqtisadi inkişaf dinamikası əvvəlki dövrlərlə müqayisə edilməyəcək dərəcədə yüksək olan Naxçıvan Muxtar Respublikası vahid və etibarlı siyasi kurs üzrə gələcəyə inamla irəliləyir. Ötən ayın siyasi mənzərəsi, əldə olunan göstəricilər də bunu deməyə bir daha əsas verir ki, günü-gündən abadlaşan, tərəqqi edən qədim diyarımızda ulu öndər Heydər Əliyevin siyasi xətti uğurla, sədaqət və əzmkarlıqla davam etdirilir. Genişmiqyaslı quruculuq işləri, daim ön planda olan insan amili və insan kapitalı, innovativ inkişafa, müasir texnologiyaların, elmi nailiyyətlərin tətbiqinə əsaslanan sosial-iqtisadi tərəqqi, yüksələn rifah halı insanlarda böyük ruh yüksəkliyi, daha firavan gələcəyə inam yaradır.*

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Meliorasiya və irriqasiya tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən avqust ayında payız suvarma mövsümünə hazırlıqla əlaqədar tədbirlər həyata keçirilmiş, 9,3 kilometr beton və torpaq kanal, 11 kilometr ara arxlar və 4,6 kilometr kollektor lildən təmizlənmiş, 500 metr yeni açıq drenaj kanalı qazılmış, 64 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Muxtar respublika üzrə su istifadəçilərinə 31,48 milyon kubmetr su verilmiş, bunun müqabilində 26 min 662 hektar torpaq sahəsi suvarılmışdır.

Əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 400 metr məsafədə selə qarşı istiqamətləndirici bənd salınmışdır.

Mütərəqqi suvarma metodlarının tətbiqi sahəsində Kəngərli rayonunun Böyükdüz kəndində 800, Şahbuz rayonunun Türkeş kəndində 270 hektar ərazidə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 22 kilometr suvarma xətti çəkilmiş, 153 supaylayıcı hovuz və suvarma hidrantı quraşdırılmışdır.

Muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində ötən ay 3,2 kilometr yeni içməli su xətti çəkilmiş, 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilmişdir. Həmçinin suvarma və içməli su mənbəyi kimi istifadə olunan 96 subartezian quyusunda təmir işləri aparılmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Şərur rayonunun Sərxanlı kəndində 2,6 kilometr su, Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 1,6 kilometr su və 4,2 kilometr kanalizasiya, Sədərək rayonunda 1 kilometr su, 5 kilometr kanalizasiya, Kəngərli rayonunun Qarabağlar və Qabıllı kəndlərində 12 kilometr su xətti çəkilmiş, 2 subartezian quyusu qazılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hamiliyinə verilmiş tələbələrin nəzəri biliklərlə yanaşı, praktik vərdişlərini də artırmaq məqsədilə bir sıra tədbirlər görülür. Belə tədbirlərin davamı olaraq gənc ekoloq və geoloqlar Əlincəçay ətrafındakı səpinti qızıl axtarışında iştirak ediblər.***

## Tələbələr səpinti qızıl axtarışı prosesini öyrəniblər



Təcrübədə bölgədəki axtarış və kəşfiyyat işlərindən danışan Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin baş geoloqu Sultan Rzayev Əlincəçay ətrafında səpinti qızıl axtarışının 1960-cı illərdən başlandığını və uzun müddət ərzində bölgülər üzrə işlər aparıldığını bildirib. Qeyd olunub ki, Qızılca-Camaldın bölgəsində axtarışlara 2016-cı ildən başlanılıb.

Sonra diametri 219 millimetr olan xüsusi qazma avadanlığı barədə məlumat verilib, axar suda yuyularaq qızıl nişanlarının əldə olunması öyrədilib.

İş prosesləri ilə tanışlıqdan sonra gənc ekoloq və geoloqlar Culfa şəhərindəki Geologiya Muzeyində olublar. Geoloji Tədqiqat Mərkəzində də olan tələbələrə laboratoriyada daş süxurların analizi və digər iş sahələri haqqında ətraflı məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna qədim əlyazma və kitablar hədiyyə edilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna hədiyyə olunan qədim əlyazma və çap kitablarının təqdimatı keçirilib.*





Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq muxtar respublika ərazisindən toplanılan əlyazma və qədim çap kitablarının tariximizin və mədəniyyətimizin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıdığını söyləyib və bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb. Ötən illərdə də Mədəniyyət Nazirliyi tərəfindən bir çox qədim əlyazma və çap kitabının Əlyazmalar Fonduna hədiyyə edildiyini bildirən akademik vurğulayıb ki, müxtəlif tarixi qaynaqları əhatə edən bu nadir sənət əsərləri bir çox sahələrin öyrənilməsində yeni mənbə rolunu oynayır.

Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, hər bir xalqın qədimliyi onun mədəniyyətinin zənginliyi ilə dəyərləndirilir. Dünya mədəniyyəti xəzinəsinə görkəmli tarixi şəxsiyyətlər – şair, filosof, elm və sənət adamları bəxş etmiş Azərbaycan xalqı da əvəzsiz yazı sənəti, əlyazma sərvəti ilə dünya mədəniyyətində özünə layiq yer tutur.

Qeyd olunub ki, tarixi və mədəni əhəmiyyət kəsb edən eksponatların, həmçinin qədim əlyazma və kitab nümunələrinin profil istiqamətləri üzrə muzeylərə və elmi-tədqiqat müəssisələrinə hədiyyə edilməsi artıq ənənə halını alıb, bu isə muxtar respublikada qədim tariximizə, zəngin mədəniyyətimizə göstərilən yüksək diqqət və qayğının əməli nəticəsi kimi fondlarımızın zənginləşməsinə töhfələr verməkdədir. Nazirlik tərəfindən bu ilin fevral ayında da AMEA Naxçıvan Bölməsinə hədiyyə edilmiş qədim əlyazma və kitabların təqdimat mərasimi keçirilib.

Bildirilib ki, nazirliyin tabeliyindəki muzeylərə bu il 787 yeni eksponat daxil olub. Təqdimat mərasimində AMEA Naxçıvan Bölməsinə hədiyyə edilən 39 sayda kitab, jurnal və dərsliklər əski əlifba ilə olmaqla, Azərbaycan, ərəb və fars dillərindədir. Bu kitablar içərisində nəsrlə yanaşı, nəzmlə yazılanlar da mövcuddur. Hədiyyə edilən kitablar arasında ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən, eləcə də tarixi hadisələrin təsvir və şərhlərinin verildiyi nümunələr də mövcuddur.

Natəvan Qədimova təqdimat mərasimindəki roluna görə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevə təşəkkür edib.

Nazir çıxışının sonunda mədəniyyətimizin, tariximizin elmi əsaslarla əhatəli şəkildə tədqiqinə və təbliğinə göstərdiyi böyük diqqət və qayğıya görə Mədəniyyət Nazirliyi adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev çıxış edərək tarixi əhəmiyyət kəsb edən maddi mədəniyyət və nadir sənət nümunələrinin toplanılması, öyrənilməsi və təbliğinin zəruriliyini qeyd edib.

Sonra AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya elmlər doktoru Fərman Xəlilov diqqətə çatdırıb ki, qədim əlyazma və kitabları tədqiq etmək, bu dəyərli əsərləri mühafizə edib gələcək nəsillərə çatdırmaq xalqımızın tarixinin və keçmişinin gələcəyə çatdırılması deməkdir. O hədiyyə olunan kitablar haqqında ətraflı məlumat verməklə yanaşı, minnətdarlığını da bildirib.

Sonda AMEA Naxçıvan Bölməsinə hədiyyə edilən kitablara baxış olub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Heyvandarlığın inkişafı ilə bağlı kitab və atlasın təqdimatı keçirilib



*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri Əyyub Abdullayevin “Heyvan cinslərinin rayonlaşdırılmasının atlası” və “Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları” kitabının təqdimatı olub.*

Tədbirdə Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov çıxış edərək bildirib ki, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər sırasında heyvandarlığın inkişafı mühüm yer tutur. Damazlıq işinin düzgün qurulması və cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılır, səmərəli metod kimi süni mayalanma tədbirlərinə geniş yer verilir. Təbii ki, bu sahədə davamlı inkişafı təmin etmək üçün elmi yanaşma da mühüm şərtdir. Məhz bu məqsədlə Ali Məclis Sədrinin tapşırığına əsasən muxtar respublikada damazlıq – seleksiya işlərini yaxşılaşdırmaq və bütün yaşayış məntəqələrində relyefə uyğun heyvan növlərinin və cinslərinin yetişdirilməsi nəticəsində məhsul bolluğunun yaradılmasına nail olmaq üçün kitab və atlas hazırlanıb. Müəllif, nazirliyin şöbə müdiri Əyyub Abdullayev kitabda akademik Eyyub Bəşirovun elmi-nəzəri əsərlərinə və digər alimlərin bu sahə ilə bağlı yazdığı nəşrlərə istinad edib.

Qeyd olunub ki, 4 hissə, 131 səhifədən ibarət “Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları” adlı kitab geniş məzmunlu izahatlarla seçilir, “Heyvan cinslərinin rayonlaşdırılmasının atlası”nda isə bütün yaşayış məntəqələrinin relyefinə uyğun olaraq heyvan cinslərinin və növlərinin inkişaf etdirilməsi ilə bağlı tövsiyələr yer alıb. Nəşrlər heyvandarlıqla məşğul olan sahibkarlara təsərrüfatlarındakı heyvanların cins tərkibini yaxşılaşdırmaqla, məhsul bolluğuna nail olaraq ailə büdcələrinə daha çox gəlir gətirməsinə geniş imkanlar açacaq.



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzov çıxışında qeyd edib ki, istər Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq təbabəti ixtisasının tələbələri, istərsə də heyvandarlıqla məşğul olan fermerlər bu kitabdan səmərəli şəkildə faydalana bilərlər.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Şəmil Mahmudov, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov, Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzinin direktoru Yusif Qurbanov çıxışlarında yeni nəşrlərin əhəmiyyətindən danışıblar.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri Əyyub Abdullayev nəşrlərin ərsəyə gəlməsində göstərdiyi böyük diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**✍ Nail ƏSGƏROV**

# Muxtar respublikada avqust ayında 521 abonent internetlə təmin olunub

*Naxçıvan Muxtar Respublikasında yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2020-ci ilin avqust ayında da uğurla davam etdirilib.*



Stasionar telefon şəbəkəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq ay ərzində muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılıb, ümumilikdə, 193 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilib. Bunlarla yanaşı, istismar müddəti ərzində rabitə və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində də operativ və zəruri tədbirlər həyata keçirilib, istismar zamanı sıradan çıxmış avadanlıqlar yeniləri ilə əvəz olunub.

Əhalinin keyfiyyətli internet xidmətləri ilə təmin edilməsi daim diqqət mərkəzində saxlanılıb, ay ərzində 521 abonent internetlə təmin olunub, “Evədək optika” layihəsi çərçivəsində 4 fərdi mənzilə fiber-optik xətt çəkilib, zəruri avadanlıqlar quraşdırılıb. Həmçinin internet xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində müvafiq təhlillər aparılıb, müraciətlərə uyğun olaraq əhaliyə və dövlət qurumlarına texniki dəstək və metodik köməkliklər göstərilib, yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində zəruri texniki tədbirlər görülüb.

Nazirlik tərəfindən qeyd olunan dövrdə kadr hazırlığı da diqqət mərkəzində saxlanılıb, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara, ümumilikdə, 119 qrup olmaqla, 308 dinləyici cəlb edilib.

Qeyd olunanlarla yanaşı, 12 avqust 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqətin artırılması, mal-material ehtiyatının yaradılması istiqamətində verilmiş tapşırıqların icrasına uyğun olaraq mal-material ehtiyatının yaradılması, avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara, akkumulyatorlara və xətt təsərrüfatına texniki baxışın keçirilməsi, aşkar olunan müxtəlif tutumlu yararsız kabel və dayaqların yeniləri ilə əvəz olunması, habelə rabitə mütəxəssislərinin mövsümə uyğun geyim və zəruri avadanlıqlarla təmin edilməsi istiqamətində işlər davam etdirilir.

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi diqqət mərkəzində saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Estafet*

# Sağlamlıq imkanları məhdud şəxslərə qayğı

***Sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərin real həyata uzlaşması, bir fərd olaraq özünəqulluq və özünəxidmət bacarıqlarına malik olması, müstəqil yaşam vərdişlərinə yiyələnməsi, fiziki və əqli inkişaf səviyyəsinə uyğun olaraq təhsil alması onların inkişafını şərtləndirən əsas amillərdən biridir. Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda xüsusi qayğıya ehtiyacı olan şəxslər daim diqqət mərkəzində saxlanılır, onların yüksək səviyyədə təhsil almasına, asudə vaxtlarının səmərəli təşkilinə, cəmiyyətə inteqrasiyasına həssaslıqla yanaşılır.***

Son illərdə muxtar respublikamızda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə yaradılmış “Sosial könüllülük” proqramı çərçivəsində sağlamlıq imkanları məhdud şəxslər könüllü gənclər tərəfindən mütəmadi ziyarət olunur, onlara mənəvi dəstək göstərilir. Eyni zamanda xüsusi günlərdə və bayram ərəfələrində sosial könüllülər həmin kateqoriyadan olan insanların yanında olmaqla, öz gənclik öhdəliklərini yerinə yetirirlər.

Onların cəmiyyətə inteqrasiya olunması və müstəqil fərd kimi yetişməsi üçün yaradılan mərkəzlərin böyük əhəmiyyəti vardır. Belə mərkəzlərdən biri də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzidir. Bu yaxınlarda həmin mərkəzdə olub, orada təhsil alan, həmçinin sosial könüllü kimi ziyarət etdiyimiz bir neçə məhdud fiziki imkanlı uşaq və yeniyetmə ilə həmsöhbət oldum. Onlardan biri 10 yaşlı Rüstəm Rüstəmovdur.

Rüstəm 5 ildir ki, mərkəzdə təhsil alır, burada təşkil olunan tədbirlərdə, yaradıcılıq, bilik müsabiqələrində yaxından iştirak edir, muzey ekskursiyalarına gedir. Müxtəlif bayram tədbirlərində milli rəqslərimizlə çıxış edir, şeirlər deyir. Rüstəmin qazandığı uğurlar valideynlərini də sevindirir. Onun digər yoldaşları da fəallığı ilə seçilirlər. Belə yeniyetmələrdən biri də mərkəzdə əvvəllər təhsil almış Umud Məmmədovdur.



Umud rəsm qabiliyyəti ilə seçilir. O, muxtar respublikamızda təşkil edilmiş müxtəlif rəsm müsabiqələrində iştirak edib, fəxri fərmanlarla təltif olunub. Ötən il sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə keçirilən bayram tədbirində rəqs nömrələri ilə çıxış edib. Bu ilin iyun ayında mərkəzdə keçirilən yaradıcılıq müsabiqəsində fəal iştirakına görə mükafatlandırılıb. Umud, həmçinin müxtəlif parça və tullantılardan maketlər də hazırlayır. O, mərkəzdə aldığı təhsili başa vurmağına baxmayaraq, fəallığı ilə seçildiyinə görə hazırda da tədbirlərə dəvət olunur və onların təşkilinə yardım göstərir.

Şüğeyib Hüseynov da mərkəzdə təhsil alıb fərqlənənlərdəndir. O, müxtəlif yarışlarda fəallığı ilə seçilir. Qaçış, eləcə də muxtar respublikamızda təşkil olunan boccia idman növü üzrə keçirilən yarışlarda iştirak edərək uğur qazanıb, fəxri fərmanlarla təltif edilib. O, bayram tədbirlərində öz yoldaşları ilə birgə müxtəlif rəqslər hazırlayır. Şüğeyib Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun təşkil etdiyi sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq müsabiqəsində xor qrupunda da çıxış edib.

Göründüyü kimi, muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərimiz onlara göstərilən dövlət qayğısı hesabına təhsil ala, özlərini inkişaf etdirə bilir, cəmiyyət üçün faydalı bir şəxs kimi yetişirlər. Söhbət zamanı yeniyetmələrimizin simalarında müşahidə etdiyim təbəssüm və həyata olan sevgi də elə bu qayğının bəhrəsi idi.

**Məhərrəm HƏSƏNOV**
***“Naxçıvan” Universitetinin IV kurs tələbəsi, sosial könüllü***

## Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu

### *2020-ci ilin ölkəmizdə “Könüllülər ili” elan edilməsi münasibətilə “Könüllülük: tarix və müasirlik” mövzusunda yaradıcılıq müsabiqəsi elan edir*

***Müsabiqə aşağıdakı istiqamətlər üzrə keçirilir:***

– qəzet məqaləsi;
– teleradio materialları;
– ədəbi yaradıcılıq (şeir, nəsr və sair);
– rəsm əsəri.

***Müsabiqənin keçirilməsində məqsəd:***

Müsabiqənin keçirilməsində məqsəd könüllülük fəaliyyətinin tarixinə nəzər salmaq, Naxçıvan könüllülərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, könüllülüyün günümüzdəki inkişafını müxtəlif materiallarla təqdim etmək, könüllülük hərəkatının təbliğatını aparmaqla gəncləri könüllü olmağa həvəsləndirmək, könüllü gənclərin fəaliyyətini stimullaşdırmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaqdır.

***Müsabiqədə iştirak:***

Yaradıcılıq qabiliyyəti olan 16-29 yaş arası gənclər müsabiqədə iştirak edə bilər. Lakin bu zaman iştirakçı yalnız bir istiqamət seçməlidir.

***Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları:***

– işlərin könüllü fəaliyyəti ilə bağlılığı;
– işlərin bədii səviyyəsi və keyfiyyəti;
– müsabiqənin şərtlərinə cavab verməsi və istiqamətlərdən birini əhatə etməsi;
– ideyanın orijinallığı;
– işin təsiredici qüvvəyə malik olması və mövzunun asan qavranılması;
– yaradıcı yanaşma və mövzunun açılması.

***Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:***

*Teleradio verilişi və qəzet məqaləsi:*

Müsabiqəyə təqdim olunan məqalələr müəllifin istəyinə uyğun olaraq “Şərq qapısı” və ya şəhər və rayon qəzetlərində dərc edilməli, “Nuhçıxan” İnformasiya Agentliyində yerləşdirilməli, teleradio materialları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda efirə yayımlanmalı, bu zaman “Könüllülük: tarix və müasirlik” mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür” qeydi göstərilməlidir.

*Ədəbi nümunələr:*

Müsabiqəyə təqdim olunan ədəbi nümunələr üçün həcm məhdudiyyəti yoxdur. Ədəbi nümunələr (həcmi uyğun olarsa) qəzetlərdə çap oluna bilər.

*Rəsm əsəri:*

Müsabiqəyə təqdim edilən rəsm əsərləri rəngkarlığın və qrafikanın müxtəlif texnikalarından istifadə olunmaqla (sulu boya, yağlı boya, quaş, qara qələm, qarışıq texnika və sair) və istənilən material üzərində işlənə bilər. Müsabiqəyə təqdim olunan rəsm əsərləri minimum 50x60 santimetr ölçüdə olmalıdır.

***Müsabiqənin keçirilmə vaxtı:***

Müsabiqə 2020-ci il sentyabr ayının 10-dan noyabr ayının 30-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları işləri 2020-ci il noyabrın 30-dək şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının Gənclər Fonduna təqdim etməlidirlər.

Qaliblər 2020-ci ilin dekabr ayında “5 dekabr – Beynəlxalq Könüllülər Günü” münasibətilə təşkil olunacaq tədbirdə elan olunacaq və mükafatlandırılacaqlar.

***Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:***

*Birinci yer (1 nəfər) – 300 manat*
*İkinci yer (1 nəfər) – 200 manat*
*Üçüncü yer (2 nəfər) – 100 manat*
*Həvəsləndirici yer (2 nəfər) – qiymətli hədiyyələr*

***Ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 15 Gənclər Mərkəzi***
***Əlaqə telefonu: (036) 550-84-27***

*Mütəxəssis sözü*

## İkinci çörək sayılan kartof

***Kənd təsərrüfatının əsas sahələrindən biri olan və strateji əhəmiyyətinə görə dənli taxıl bitkilərindən sonra ikinci yeri kartof bitkisi tutur. Həm də ikinci çörək sayılan kartofa olan tələbatın ödənilməsi məqsədilə görülən işlər də bu cəhətdən diqqət çəkir.***



Həkimlər kartofu ən faydalı ərzaqlardan biri hesab edirlər. Tərkibində çox böyük miqdarda vitaminlərin, makro və mikroelementlərin zənginliyi səbəbindən onu “universal” adlandırırlar. Aparılan tədqiqatlar göstərir ki, kartof ürək-damar sisteminin sağlamlığına müsbət təsir edir.

Kartof B6 vitamininin mənbəyidir. Bu vitamin uşaqlarda beyinin inkişafını stimullaşdırır. Böyüklərdə kartofdan istifadə koqnitiv xüsusiyyətlərin azalma təsiri ilə bağlıdır. Bundan başqa, kartofun tərkibindəki nişasta orqanizmə serotonin, melatonin, noradrenalin kimi yaxşı əhval-ruhiyyə və keyfiyyətli yuxu hormonlarının üzə çıxmasına kömək edir. Tərkibindəki stabil nişasta bağırsaqlarda faydalı bakterial floranın inkişafı üçün əlverişli materialdır. Alimlər bu nişastanın qanda şəkərin miqdarına daha yaxşı nəzarət edilməsinə şərait yaratdığını təsdiqləyirlər.

İllərin təcrübəsi və aparılan təhlillər göstərir ki, kartofçuluq həm də iqtisadi cəhətdən daha çox gəlir gətirən sahələrdən biridir. Muxtar respublikanın torpaq-iqlim şəraiti kartofçuluğu inkişaf etdirməklə, əhalinin ilboyu yerli kartof məhsulu ilə təmin olunmasına imkan yaradır. Aqrar islahatlardan sonra muxtar respublikada bəzi məhsullar üzrə məhsuldarlığın artırılması və idxalın yerli istehsalla əvəzlənməsi sahəsində müsbət təcrübə qazanılıb. Bu istiqamətdə ən mühüm nailiyyət məhz kartofçuluqda əldə olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 11 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı” (2005-2010-cu illər) torpaq mülkiyyətçilərinin yenidən bu təsərrüfat sahəsinə qayıtmalarına imkan verib. Proqramın əsas məqsədi kartofçuluğu inkişaf etdirməklə bərabər, istehsalı artırmaq, əhalinin artan tələbatının yerli məhsul hesabına ödənilməsini tam təmin etməkdən ibarət idi və qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilib.

Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsidir ki, kartof



əkini sahələri ildən-ilə genişlənir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığın aradan qaldırılması, tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib.

Sevindirici haldır ki, ötən illərdə də bu sahədə böyük uğurlar əldə olunub. Statistik məlumatlara görə, 1995-ci ildə muxtar respublikada 200 hektar sahədə kartof əkildiyi halda, 2005-ci ildə bu rəqəm 1990 hektara, 2010-cu ildə 2740,5 hektara, 2019-cu ildə isə 3228 hektara çatıb.

Onu da qeyd edək ki, kartof istehsalındakı artım tək sahələrin genişlənməsi hesabına deyil, həm də məhsuldarlıqda artıma nail olunması nəticəsində mümkün olub. Belə ki, 1995-ci ildə kartofun orta məhsuldarlığı 20 sentner olduğu halda, 2019-cu ildə 155,2 sentnerə çatıb.

Müstəqilliyin ilk illərində muxtar respublikanın kartofa olan tələbatının ödənilməsində idxal böyük paya malik idisə, hazırda hər il tonlarla faraş kartof ixrac edilir.

Onu da qeyd edək ki, məhsul bolluğunun yaradılmasında soyuducu anbarların istifadəyə verilməsinin böyük rolu var. Bu anbarlar bir tərəfdən məhsul satışı ilə bağlı meydana çıxan problemləri aradan qaldıraraq yerli istehsalla məşğul olmağa marağı artırırsa, digər tərəfdən əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı üçün də geniş imkanlar yaradır. Bu gün muxtar respublikada ümumi tutumu 18 min 940 ton olan 40 soyuducu anbar fəaliyyət göstərir.

Kartof istehsalında başlıca diqqət yetirilən məsələlərdən biri də yüksək reproduksiyalı toxumlarla təchizat məsələsidir. Dövlətin diqqət və qayğısı nəticəsində artıq bu məsələ də öz həllini tapıb. Muxtar respublikada yaradılmış toxumçuluq təsərrüfatları, həmçinin ailə təsərrüfatçıları və torpaq mülkiyyətçiləri tərəfindən muxtar respublikaya Türkiyə, İran və digər dövlətlərdən gətirilən keyfiyyətli toxum məhsulları kartofçuluqla məşğul olanların işlərini intensivləşdirib.

Bütün bunlar onu göstərir ki, kartof əhali üçün əsas ərzaq, istehsalçı üçün gəlir mənbəyidir. Cari ilin yazında muxtar respublikada 3241 hektar sahədə kartof əkilib. Hazırda məhsul yığımı davam edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq Sərəncamla Naxçıvan Muxtar Respublikasında 2020-ci il “İxrac ili” elan edilib. Bu, əkinçilik məhsullarının ixrac imkanlarını artırmaqla yanaşı, bu sahənin daha da genişləndirilməsinə stimul verib.

Əvvəlki illərdə olduğu kimi, bu il də əkilmiş kartofun daxili tələbatı ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcəyi gözlənilir.

**Zəkəriyyə GÖZƏLOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri***

## Naxçıvan Dövlət Universiteti

### *2020-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

Naxçıvan Dövlət Universitetində 2020-ci il üçün doktorantura və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 avqust tarixli 493s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”na əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

*Ödənişli əsaslarla, əyani təhsilalma forması:*

1. Mühasibat uçotu – 1 yer
2. Müəssisələrin təşkili və idarə olunması – 1 yer

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

*Büdcə hesabına:*

1. Parazitologiya – 1yer
2. Ümumi iqtisadiyyat – 1 yer
3. Sahə iqtisadiyyatı – 1 yer
4. Vətən tarixi – 1 yer
5. Azərbaycan dili – 1 yer
6. Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
7. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer
8. Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası – 1 yer
9. Beynəlxalq münasibətlər – 1 yer
10. Təbiətin fəlsəfəsi – 1 yer

*Ödənişli əsaslarla:*

1. Farmakologiya, klinik farmakologiya – 1 yer
2. Kompüter qurğuları və texnologiyası – 1 yer
3. Ümumi iqtisadiyyat – 1 yer
4. Müəssisələrin təşkili və idarə olunması – 2 yer
5. Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer
6. Arxeologiya – 1 yer
7. Dil nəzəriyyəsi – 1 yer
8. Azərbaycan dili – 1 yer
9. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 3 yer
10. Pedaqoji psixologiya – 1 yer
11. Kulturologiya və onun ümumi məsələləri – 1 yer

**Elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

*Büdcə hesabına, qiyabi təhsilalma forması:*

1. Botanika – 2 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün məqsədli – 1 yer)
2. Müəllim hazırlığı və fəaliyyəti – 1 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün məqsədli yer)

**Elmlər doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

*Ödənişli əsaslarla:*

1. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- *Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *4 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsili haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *xarici dil biliklərinə dair beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 noyabr tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Bu tələblərə görə doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər və ya xarici dildən imtahanda keçid balını toplamayan şəxslər fəlsəfə üzrə imtahana buraxılmırlar.

Fəlsəfə fənni üzrə qəbul imtahanını doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir və imtahanın nəticəsi “məqbul” və ya “qeyri-məqbul”la qiymətləndirilir. Fəlsəfə üzrə imtahanda iştirak etməyənlər və ya imtahandan keçməyənlər ixtisas fənnindən imtahana buraxılmırlar.

İxtisas fənnindən qəbul imtahanını doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir.

Dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) doktoranturaya qəbul olmaq istəyənlər üçün müəyyənləşdirilmiş qaydada keçirilən qəbul imtahanı verirlər. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdır.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. İmtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və nazirliklə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və nazirliklə razılaşdırmaqla DİM tərəfindən müəyyənləşdirilir.

Sənədlərin qəbulu 25 sentyabr 2020-ci il tarixədək həftənin iş günlərində saat $9^{00}$-dan $17^{00}$-a kimi aparılır.

*Əlavə məlumat almaq üçün Naxçıvan Dövlət Universitetinin Elmi Tədqiqatların Əlaqələndirmə Bölməsinə müraciət etmək olar. (Otaq № 207)*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Naxçıvan Dövlət Universiteti***
***Əlaqə telefonu:(+994 36) 545-45-59***
***E-mail: elmihisse@ndu.edu.az***

## Elan

2020-ci il sentyabrın 17-si saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcəkdir.

İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

***Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 120, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binası***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Manafov Adil Mahir oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayon, Aşağı Qışlaq kənd sakini Ələkbərova Fatma Abbas qızının adına olan JN-158$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 676